**Azərbaycan Respublikası**
**Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurası**

**QƏRAR № 6**

Bakı şəhəri, "04" iyul 2018-ci il

Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurası sədrinin səlahiyyətlərini icra edən Rasim Vaqif oğlu Quliyevin sədrliyi ilə və Rövşən-Babək" firmasının direktoru, Bakı şəhəri, Azadlıq prospekti, ev 18, mənzil 24-də daimi qeydiyyatda olan sahibkar Rövşən Bəxtiyar oğlu Əkbərovun (VÖEN: 1000679412) iştirakı ilə, sahibkar R.B.Əkbərovun Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasına ünvanlanan və 21.06.2018-ci il tarixdə qeydiyyatdan keçmiş Ə-364-026 nömrəli şikayətə baxaraq,

**MÜƏYYƏN ETDİ**

Araşdırma zamanı müəyyən edilmişdir ki, müraciət müəllifi Əkbərov Rövşən Bəxtiyar oğlunun rəhbər olduğu "Rövşən-Babək" kiçik müəssisəsinə məxsus Bakı şəhəri, Binəqədi rayonu, Azadlıq prospekti 24 ünvanında yerləşən, ümumi sahəsi 90,8 $metr^2$ olan qeyri-yaşayış sahəsi ipoteka qoyulmaqla 29 mart 2007-ci il tarixli, K-3368 saylı Kredit Müqaviləsinə əsasən, "Azəriqazbank" ASC-dən 130.000 (yüz otuz min) Amerika Birləşmiş Ştatları dolları məbləğində kredit götürülmüşdür.

Müraciətə əlavə olunan iş materiallarından göründüyü kimi, bank tərəfindən dəfələrlə edilən xəbərdarlıqlara baxmayaraq, borclu kredit müqaviləsi üzrə öhdəliklərini yerinə yetirməyərək, banka olan borcu ödəməmişdir.

Müraciətə əlavə olunmuş materiallar əsasında müəyyən edilmişdir ki, banka olan borcun ödənilməsi məqsədilə, iş üzrə iddiaçı "Azəriqazbank" Açıq Səhmdar Cəmiyyəti cavabdeh "Rövşən-Babək" kiçik müəssisəsinə qarşı iddia ərizəsi ilə 1 saylı Bakı yerli İqtisad Məhkəməsinə müraciət edərək Bakı şəhəri, Binəqədi rayonu, Azadlıq prospekti 24-də yerləşən qeyri-yaşayış sahəsinin satmaq hüququnun "Azəriqazbank" ASC-nə verilməsi, həmin qeyri-yaşayış sahəsinin satışından əldə olunmuş pul vəsaitlərinin

"Rövşən-Babək" kiçik müəssisəsinin "Azəriqazbank" ASC-nə satış gününə olan borcunun ödənilməsinə yönəldilməsi və məhkəmə xərclərinin cavabdehdən tutulması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

1 saylı Bakı yerli İstisad Məhkəməsinin iş üzrə qəbul etdiyi 17 iyun 2008-ci il tarixli qiyabi qətnaməsi və iddia tələbi təmin edilmişdir.

Qiyabi qətnamədən narazı qalan cavabdeh "Rövşən-Babək" kiçik müəssisəsi tərəfinədn şikayət verərək həmin qətnamənin ləğv edilməsini, işə əyani icraat qaydasında baxılmasını xahiş etmişdir.

1 saylı Bakı yerli İstisad Məhkəməsinin iş üzrə qəbul etdiyi 16 yanvar 2009-cu il tarixli qərardadı ilə cavabdehin ərizəsi təmin olunaraq 1 saylı Bakı yerli İstisad Məhkəməsinin 17 iyun 2008-ci il tarixli qiyabi qətnaməsi ləğv olunmuş və mahiyyəti üzrə baxılması təzələnərək məhkəmə baxışı təyin edilmişdir.

Sonradan, 1 saylı Bakı yerli İstisad Məhkəməsinin 26 fevral 2009-cu il tarixli qətnaməsi ilə iddia təmin edilərək Bakı şəhəri, Azadlıq prospekti, ev 18, mənzil 24-də yerləşən qeyri-yaşayış sahəsini satmaq hüququnun "Azəriqazbank" ASC-nə verilməsi, satışından əldə olunan məbləğin satış gününə "Rövşən-Babək" kiçik müəssisəsinin "Azəriqazbank" ASC-nə olan borcunun verilməsinə yönəldilməsi, "Rövşən-Babək" kiçik müəssisəsindən 19 manat 80 qəpik (on doqquz manat səksən qəpik) məbləğində dövlət rüsumunun alınaraq "Azəriqazbank" ASC-nin hesabına verilməsi qət edilmişdir.

Qətnamədən narazı qalan iş üzrə cavabdeh "Rövşən-Babək" kiçik müəssisəsi apellyasiya şikayəti verərək 1 saylı Bakı yerli İstisad Məhkəməsinin 26 fevral 2009-cu il tarixli qətnaməsinin ləğv edilməsini xahiş etmişdir.

Bakı Apellyasiya Məhkəməsinin 29.06.2009-cu il tarixli iş№2-1(103)-238/2009 saylı qərarı ilə apellyasiya şikayəti təmin edilməmiş, 1 saylı Bakı yerli İstisad Məhkəməsinin 26 fevral 2009-cu il tarixli 2(81)-2009 saylı qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, həmçinin müraciətdə qeyd olunan və "Rövşən-Babək" kiçik müəssisəsinin yerləşdiyi Binəqədi rayonu, Azadlıq prospekti 24 ünvanında Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən hər hansı abadlıq-quruculuq və tikinti-yenidənqurma işləri həyata keçirilməmişdir.

Qeyd olunan hallar müraciətdə qaldırılan məsələnin məhkəmə predmeti olduğunu, həmçinin məsələnin həllinin Bakı Şəhər İcra Hakimiyyətinin səlahiyyətləri və imkanları xaricində olduğunu söyləməyə əsas verir.

Göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 762 nömrəli, 03.02.2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 1.1-ci, 1.4-cü, 7.4.3-cü bəndlərini rəhbər tutaraq,

**QƏRARA ALINDI:**

1. "Rövşən-Babək" firmasının direktoru, Bakı şəhəri, Binəqədi rayonu, Azadlıq prospekti, ev 18, mənzil 24-də daimi qeydiyyatda olan sahibkar Əkbərov Rövşən Bəxtiyar oğlunun şikayəti təmin edilməsin.
2. Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının Katibliyi bu qərarın surətini sahibkar Rövşən Bəxtiyar oğlu Əkbərova göndərilməsini təmin etsin.

**Bakı Şəhər İcra Hakimiyyətinin**
**Apellyasiya Şurasının sədrinin səlahiyyətlərini icra edən**

**Rasim Quliyev**

/Hüquq şöbəsinin müdiri: Sani Nəsibov/

/Apellyasiya Şurası Katibliyinin rəhbəri: Zaur Ramazanov/